Ümumi məlumat	Fənnin adı, kodu və kreditlərin sayı	**DSN 450 Dizayn portfolio**
	Departament	**Memarlıq və dizayn departamenti**
	Proqram (bakalavr)	Bakalavr
	Tədris semestri	2022/2023-cü tədris ilinin yaz semestri
	Fənni tədris edən müəllim (lər)	Doktorant Leyla Hüseynova
	E-mail:	leylahuseynova@khazar.org
	Telefon:	+994 51 601 67 27
	Mühazirə otağı/Cədvəl	Neftçilər filialı, 109-cu otaq
	Məsləhət saatları	Tələbələrlə razılaşdırılan vaxtlarda
Prerekvizitlər	-	
Tədris dili	Azərbaycan	
Fənnin növü (məcburi, seçmə)	Buraxılış işi	
Dərsliklər və əlavə ədəbiyyat	**1. Design: Portfolio: Self promotion at its best Flexibound – June 1, 2013 by Craig Welsh** **2. Building Design Portfolios: Innovative Concepts for Presenting Your Work (Design Field Guide) Paperback – May 1, 2008 by Sara Eisenman** **3. Creating Your Digital Portfolio: The Essential Guide to Showcasing Your Design Work Online Hardcover – December 26, 2010 by Ian Clazie** **4. Creating a Successful Graphic Design Portfolio Irina Lee (Author) Published January 14 2021** **5. Burn Your Portfolio: Stuff they don't teach you in design school, but should by Michael Janda. Published Jun 1, 2013 by New Riders.**	
Kursun təsviri	Bu fənndə Portfolio dizaynı haqqında anlayış, burada tətbiq olunan əsas terminlərin izahı, portfolionun inkişaf tarixi, öyrənilmə metodları nəzərdə tutulur. Portfolionun mahiyyəti və məzmunu, portfolionun təsnifatı, növləri, portfolionun yeni formadan öyrənilməsi, sistemli portfolionun struktur elementləri portfolionun vasitələri, tipi və növləri, portfolionun estetikası və psixologiyası, portfolionun xüsusiyyətlərinin öyrənilməsi, portfolion (obrazın) surətinin yaradılması, portfolionun kompozisiyası, sistemli mülahizələşdirmə, tipləşdirilmə, sistemli dizayn növləri.	
Kursun məqsədləri	**Fənnin məqsədi**: "Portfolio dizaynı" fənninin tədrisinin başlıca məqsədi, tələbələrə əsasən ölkədə və beynəlxalq mühitdə dizaynerlərin işə qəbul olmaları üçün vacib olan Portfolio yaradılmasının əsaslarını öyrətmək və onların ixtisaslarının müxtəlif sahələrində işləmək bacarığını aşılamaq, zövqünün inkişaf etdirilməsi cəhətlərini təkmilləşdirməkdir.	

Tədrisin (öyrənmənin) nəticələri	Fənnin ümumi tədrisi prosesində tələbələr: **Bilməlidir:** - təqdimat materiallarının formalaşdırılmasının məqsəd və prinsiplərini; - multimedia texnologiyalarının inkişafında mövcud tendensiyalar. **Bacarmalıdır:** - öz təhsil və layihə fəaliyyətlərinin nəticələrini təhlil etmək və adekvat qiymətləndirmək. - ictimai təqdimat bacarığı; - texnoloji alətlər: təqdimat avadanlığı və proqram təminatı. - nəzəri bilikləri praktikada tətbiq etmək.

Tədris metodları	Mühazirə	x	
	Qrup müzakirəsi	x	
	Praktiki tapşırıqlar	x	
	Praktiki məsələnin təhlili	x	
Qiymətləndirmə	**Komponentləri**	**Tarix/son müddət**	**Faiz (%)**
	Davamiyyət		5
	Tapşırıq		20
	Aralıq imtahanı		30
	Final imtahanı		45
	Yekun		100

Qaydalar (Tədris siyasəti və davranış)

Tapşırıq

Fənn müəllimi tərəfindən Portfolio dizaynının tətbiqinə uyğun olaraq mühazirələr danışılacaq. Keçirilən mövzulara əsasən tələbələrə praktiki tapşırıqlar veriləcək. Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Tədrisin sonunda tələbə portfolio yaratmağın baza biliklərinə yiyələnəcəkdir.

Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Məzmunundan asılı olaraq, tapşırıqlar qrafik formada tələb olunacaqdır.

Aralıq (30 bal) və final (45 bal) imtahanında dəyərləndiriləcək.

Praktiki tapşırıqlar mütləq tələbə tərəfindən təqdim edilməsi tələb olunur. Bu tapşırığın məqsədi gələcək dizaynerlərin təqdimetmə, qısa müddətdə kiçik araşdırma aparmaq və öz portfoliolarını tərtib etmə vərdişlərinə yiyələnməsidir.

Aralıq imtahanından əvəl fevral və mart ayları ərzində tapşırıq təhvil verilməlidir. **Sonuncu dərs həftəsindən sonra təhvil vermək üçün əlavə vaxt verilmir.** Tələbələrin praktiki iş təhvili **imtahan** günü təyin olunur, qiymətləndirmə departamentin təyin etdiyi komissiya tərəfindən aparılır.

Qeyd: Praktiki işlər planşet üzərində hazırlanmalıdır.

İstisna: Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) təslim işində iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər

	hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbə gec təslim edə bilər. **Davamiyyət** Dərsə davamiyyətə görə verilən maksimum bal 5 baldır. Balın miqdarı əsasən: tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 5 bal verilir. Fənn üzrə semestr ərzində buraxılmış dərs saatlarının ümumi sayı normativ 25%-dən müəyyən olunmuş (xəstəlik, ailə vəziyyəti və s.)həddən yuxarı olduğu halda tələbə imtahan sessiyasına buraxılmır və onun haqqında müəyyən qərar qəbul edilir. **İmtahanlar** Aralıq imtahanı fevral və mart ayında tədris olunan mövzular üzrə verilən praktiki t**apşırığın**, final imtahanı aprel və may ayında tədris olunan mövzular əsasında praktiki t**apşırığının** təslimi keçiriləcəkdir. **Fənni bitirmək qaydası** Tələbənin biliyi maksimum 100 balla qiymətləndirilir. Kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər. **Tələbənin davranış qaydaları** Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozmaq və mobil telefondan istifadəsinə icazə verilmir.

Cədvəl (dəyişdirilə bilər)

Həftə	Tarix	Fənnin mövzuları	Dərslik/Tapşırıqlar
1	13.02.2023	**Portfolio anlayışı, məqsədi və vəzifələri.** • Mövzu əsasında praktiki tapşırığın işlənilməsi.	Mühazirə mövzuları
2	20.02.2023	**Portfolionun tərtibatında əsas prinsiplər. Portfolio tərtibatına konseptual yanaşma.** • Mövzu əsasında praktiki tapşırığın işlənilməsi.	
3	27.02.2023	**Kreativlik anlayışı. Portfolio tərtibatında kreativ ideya axtarışı. Ümumi konseptin yaranması.** • Mövzu əsasında praktiki tapşırığın işlənilməsi.	
4	06.03.2023	**Portfolionun tərtib hissələrinin müəyyənləşdirilməsi və struktur tərtibatı.** • Mövzu əsasında praktiki tapşırığın işlənilməsi.	
5	13.03.2023	**Portfolionun tərtib hissələrinin müəyyən struktura uyğun yığılması. Titul vərəgi üzərində çalışmalar. Şrift anlayışı. Şrift haggında məlumat. Şrift seçimi və mətn hazirlanması. Fərdi məsləhətlər.** • Mövzu əsasında praktiki tapşırığın işlənilməsi.	
6	20.03.2023	*Bayram*	
7	27.03.2023	**Grafik materialların, layihələrin, rəsm və eskizlərin sistemli şəkildə tərtib olunması.** • Mövzu əsasında praktiki tapşırığın işlənilməsi.	
8	03.04.2023	**Grafik materialların, layihələrin, rəsm və eskizlərin sistemli şəkildə tərtib olunması.** • Mövzu əsasında praktiki tapşırığın işlənilməsi.	
9	10.04.2023	*Aralıq imtahanı*	
10	17.04.2023	**Rəng və fon seçimi, grafik materiallarin və fotoların bir birinə uyğunlaşdırılması. Fərdi məsləhətlər.** Mövzu əsasında praktiki tapşırığın işlənilməsi.	
11	24.04.2023	*Bayram*	
12	01.05.2023	**Portfolio səhifələrin ayrı ayrı yığılması. Fərdi məsləhətlər. Yekun tərtibat işləri. Fərdi məsləhətlər.**	

		Mövzu əsasında praktiki tapşırığın işlənilməsi.	
13	08.05.2023	**Yekun tərtibat. Fərdi məsləhətlər.** Mövzu əsasında praktiki tapşırığın yekun mərhələyə gətirilməsi.	
14	15.05.2023	**Layihənin tərtibatına dair hazırlıq işləri.** Mövzu əsasında praktiki tapşırığın yekun mərhələyə gətirilməsi.	
15	22.05.2023	**Tapşırığın tamamlanması.** • Tapşırıqların tamamlanması.	
Final imtahanı			